# Azərbaycan Avropa ilə Asiyanı daha sıx birləşdirir

## *Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi dünyaya önəmli mesaj olacaq*

Şərq-Qərb nəqliyyat dəhlizi layihəsi qitələri birləşdirir və onun həyata keçirilməsində Azərbaycan və Türkiyə birgə iştirak edirlər. Bu, mühüm bir nəqliyyat dəhlizidir və hər iki ölkənin qarşısında yeni perspektivlər açır. Təsadüfi deyil ki, cari il martın 15-də Ankarada keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında da bu layihədən bir daha bəhs edilib.

Şərq-Qərb nəqliyyat dəhlizi Cənub-Şərqi Asiyadan Avropaya yük daşınmasını xeyli asanlaşdıracaq. Layihənin gerçəkləşməsində çəkilişinin cari ilin sonunda tamamlanacağı gözlənilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun böyük əhəmiyyəti var. Başqa sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu İpək Yolu dəhlizinin inkişafında yeni imkanlar açacaq.

Xatırladaq ki, Azərbaycan öz əlverişli coğrafi yerinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu, ölkəmizə Avrasiya məkanında aparıcı rola malik olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində önəmli yer tutmağa imkan verir. Bununla da, Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaq, bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək məqsədilə böyük sərmayələr qoyur, ölkə daxilində və regionda irimiqyaslı infrastruktur layihələrini həyata keçirir. Buna misal Bakı-Tbilisi-Qars dəmir yolu və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihələrini qeyd etmək kifayətdir. İndi Asiyadan Avropaya daşınan yüklərin həcminin getdikcə artması onların qısa müddətdə mənzil başına çatdırılması məsələsi gündəmə çıxır ki, bu məsələnin uğurlu həllində sözügedən layihələrin böyük əhəmiyyəti var.

Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşmasında Azərbaycan və Türkiyə birgə iştirak edirlər. Bu, iki qardaş ölkənin imza atdığı növbəti uğurlu layihədir.

BTQ dəmir yolu xətti iqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verən layihədir. Bu dəmir yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması deməkdir. Onun istifadəyə verilməsi ilə nəqliyyatın imkanları genişlənəcək, sərnişin və yük daşımalarının həcmi artacaq.

Bakı-Tbilisi-Qars dəmir yolu nəinki region ölkələri, eləcə də bu xəttə qoşulacaq digər ölkələr üçün mühüm əhəmiyyətə malik bir infrastruktur kimi də çox dəyərləndirilir. Dəmir yolunun Asiya və Avropa arasında yük və sərnişin axınının




artmasına təkan verəcəyi, turistlərin gediş-gəlişi üçün rahatlıq yaradacağı, Xəzər dənizi və Qara dəniz arasında bağlantını təmin edəcəyi şəksizdir.

BTQ dəmir yolunun istismara verilməsi ilə həm bərə, həm də konteyner-vaqon daşımalarının həcmi daha da artacaq. Bu isə beynəlxalq daşımalarda mühüm rol oynayan amildir.

Digər ölkələrin də bu layihəyə qoşulması nəticə etibarilə tarixi İpək Yolunun inkişafına xidmət edəcək. Layihənin reallaşması nəticəsində Azərbaycan, Gürcüstan və Türkiyənin Orta Asiya, Çin və Avropa ilə etibarlı və sərfəli nəqliyyat əlaqəsi yaranacaq.

Ankarada keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimizin nəqliyyat infrastrukturlarının yaradılmasında gördüyü işləri yüksək dəyərləndirib: “Nəqliyyat sahəsində bizim birgə icra etdiyimiz layihə qitələri birləşdirir. Bu gün bu məsələ geniş şəkildə müzakirə olundu və artıq nəqliyyat sahəsində yeni imkanlar mövcuddur. Bu imkanlar araşdırılır. Biz çox istərdik ki, Türkiyədən gələn yüklərin sayı artsın və Azərbaycan ərazisindən müxtəlif istiqamətlərə yönəlsin. Buna nail olmaq üçün artıq praktiki addımlar atılmaqdadır”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da fikrincə, nəqliyyat dəhlizinin yaradılmasında ölkələrimizin birgə həyata keçirdiyi işlər böyük əhəmiyyətə malikdir. Ankaradakı sözügedən iclasda qardaş ölkənin dövlət başçısının verdiyi bəyanatda bu barədə belə deyilir: “Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də nəqliyyat sahəsindəki mühüm layihəmizdir. Londondan Pekinə qədər dəmir yolu nəqliyyatını mümkün edəcək layihənin, inşaallah, dekabrda birlikdə açılışını edəcəyik. Beləliklə də bu nəhəng layihə açılışı ilə dünyaya önəmli bir mesaj olacaqdır”.

Yeri gəlmişkən qeyd edək ki, son illərdə Azərbaycan özünü dünyada güclü tranzit ölkəsi kimi təqdim edə bilib. Ölkəmizin nəqliyyat infrastrukturuna yönəltdiyi sərmayələr, yaratdığı əlverişli biznes mühiti və özünü etibarlı tərəfdaş kimi bir daha təsdiq etməsi uğurlu nəticələrini göstərir. İndi Azərbaycan dünyanın önəmli nəqliyyat mərkəzlərindən birinə çevrilməkdədir. Artıq nəinki Orta Asiyadan, hətta Çindən, Cənubi Koreyadan Avropaya Azərbaycan ərazisindən yüklər getməyə başlayıb. Bu gün Şərqdən Qərbə, Şimaldan Cənuba gedən yollar Azərbaycandan keçir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***